# Kənd təsərrüfatının siyahıyaalınması: Azərbaycanın aqrar sektoruna statistik baxış

**(Əvvəli ötən sayımızda).**

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının tövsiyələrini və beynəlxalq təcrübəni, siyahıyaalmanın planşet tipli kompüterlər vasitəsilə keçirilməsinin üstünlüklərini (yekun məlumatların əldə olunmasına 7-8 ay az vaxt tələb olunur, 340-dan artıq kompüter operatorunun 6 ay müddətinə, 73 nəfər siyahıyaalma qrupu rəhbərinin şəhər və rayonlar üzrə nümayəndəsinin 9 ay müddətinə işə qəbul edilməsinə, 1,2 milyon siyahıyaalma vərəqəsinin çap olunmasına ehtiyac qalmır, siyahıyaalma məlumatları birbaşa elektron daşıyıcılara daxil edildiyi üçün operatorların səhv etmə ehtimalı aradan qalxır, yekun məlumatların keyfiyyəti artır və s.), habelə ölkəmizdə İKT-nin tətbiqinin genişləndirilməsi zəruriliyini nəzərə alaraq 2025-ci ildə ölkəmizdə kənd təsərrüfatının siyahıyaalınmasının ilk dəfə olaraq planşet tipli kompüterlərdən istifadə etməklə sorğu yolu ilə (CAPI üsulu: Computer Assisted Personal Interviewing - kompüter vasitəsilə şəxsi müsahibə) keçirilməsi nəzərdə tutulmuşdur.

Əvvəlki siyahıyaalmaların təcrübəsi və beynəlxalq tövsiyələr də göstərir ki, bu mürəkkəb və irihəcmli işin uğurla həyata keçirilməsi istehsalçıların siyahıyaalmanın məqsəd və vəzifələri, onun zəruriliyi, ölkə və əhali üçün əhəmiyyəti, bu prosesdə kənd təsərrüfatı məhsulu istehsalçılarının üzərinə düşən vəzifələr barədə vaxtında məlumatlandırılmasından, siyahıyaalmaya cəlb edilən işçilərin peşəkarlığından, habelə siyahıyaalma vərəqəsindəki suallara alınan cavabların keyfiyyətindən çox asılıdır.

Sınaq siyahıyaalma zamanı BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının "2020-ci il Ümumdünya kənd təsərrüfatı siyahıyaalınması proqramı"nın tövsiyələri, əvvəlki siyahıyaalmaların təcrübəsi, kənd təsərrüfatının yerli xüsusiyyətləri, aidiyyəti dövlət qurumlarının, beynəlxalq ekspertin rəy və təklifləri nəzərə alınmaqla hazırlanmış siyahıyaalma vərəqəsi və onun doldurulması qaydaları, CAPI (Computer Assisted Personal Interviewing - kompüter vasitəsilə şəxsi müsahibə) üsulu ilə əldə ediləcək məlumatların elektron formada daxil edilməsi üçün metodoloji əsasların və praktiki aspektləri özündə ehtiva edən xüsusi proqram təminatları təcrübi olaraq planşet tipli kompüterlərdə uğurla sınaqdan çıxarıldı. Hazırlıq işləri davam etdirilir.

Ümumilikdə, 2025-ci ildə keçiriləcək kənd təsərrüfatının siyahıyaalınması nəticəsində təsərrüfatların istehsal fəaliyyəti, o cümlədən torpaqlardan istifadə və onların suvarılması vəziyyəti, istifadə edilən toxumların mənbəyi, gübrə və pestisidlərdən istifadə, cins heyvan və quşların sayı, istifadə olunan yemin növləri, akvakultura, kənd təsərrüfatı təyinatlı tikililər, işçi qüvvəsi və s. barədə aktual məlumatların əldə edilməsinə imkan yaranacaqdır. Bütün bunlar müvafiq qərarların qəbul edilməsində mühüm informasiya mənbəyi kimi çıxış etməklə, bu sahədə statistik müşahidə və tədqiqatların, elmi araşdırmaların aparılmasında baza rolunu oynayacaq, eyni zamanda müvafiq statistik məlumatların beynəlxalq müqayisəliliyi təmin ediləcəkdir.

**Statistika idarəsi.**

# Vətənpərvərlik duyğuları

Vətənpərvərlik, igidlik haqqında yazılan hər söz, aid olduğu qəhrəmanın şücaətini əks etdirən hər bir yazı sabahkı nəsil üçün qiymətli bir material, tarixi faktdır. Qəzet və kitablar isə gələcək nəsillərə tarixi sənəddir, yaddaş epopeyasıdır. Buna görə də, hər bir müəllifin öz bilik imkanı daxilində yazdığı kitablar təqdirəlayiq sayılmalıdır.

Qəhrəmanları biz kitablardan,bəzən saralmış,bəzən isə səliqə ilə saxlanılmış qəzet səhifələrindən və jurnallardan da oxuyub öyrənmişik. Elə buna görə də, bu günkü tarixi sabahkı nəsillər üçün sənədli şəkildə qoruyub saxlamalıyıq.

Birinci Qarabağ müharibəsi haqqında ümumi məlumatları kitablardan, ələlxüsus, o illərdəki qəzet səhifələrindən oxuyub məlumatlanırıq. Deməli,qəzetlər bu gün və sabah üçün tarixi sənəd kimidir. 2020 - ci ilin iyul - Tovuz hadisələri və Vətən müharibəsi - 44 günlük müharibə və ordumuzun döyüş əzmi, döyüşçülərimizin qəhrəmanlıqları bu gün qəzet və jurnallarda, kitablarda tərənnüm olunur.

Qəbələ şəhidləri haqqında kitablar yazılır və oxuculara təqdim olunur. Son vaxtlar şəhidlər haqqında daha çox kitablar nəşr olunmuşdur. Bu xatirə kitablarının həmçinin təqdimat tədbirləri də keçirilmişdir.

Kitab yazan hər bir qələm sahibi öz bilik və bacarığı müqabilində kitab yazmışdır. Yaxın günlərdə 5 kitab oxucuların istifadəsinə verilmişdir. Qəbələ Yazarlarına Dəstək İctimai Birliyinin "Hər könüldən bir nəğmə" kitabında ayrı-ayrı şəhidlər haqqında, bir sözlə, vətənpərvərlik mövzusunda şerlər toplanmışdır. Emin Baratoğlu Qəbələ şəhidləri haqqında "Vətən sevdalı qartallar", Mirhəsən Ağayev şəhid Ağaşirin Babayev haqda "Açılmamış solan gülüm", Zakir Tahirov şəhid Hakim Baxışov haqqında "Torpağımın hər qarışı əzizdir mənə", şəhid Rüstəm Atakişiyevin bacısı Həzin Atakişiyeva "Hər şeyin bitdiyi yerdə xüsusi təyinatlılar başlar" və şəhid Aydın Bayramovun bacısı Gülanə Nəsrullayeva "Murov pələngi" kitablarını qardaşlarına ithafən yazmışlar.




Şəhidlər, vətənpərvərlik mövzusunda Qəbələ yazarları çox kitablar nəşr etdirmişlər və kitablar hər bir vətənpərvər insanın stolüstü kitablarıdır. Nəşr olunan kitablardatəkcə müəlliflərin deyil,ayrı - ayrı qələm sahiblərinin də şer və xatirələri öz əksini tapmışdır. Qərib Hüseynov,-Bibixanım İsayeva,Cəlil Xeyirbəy, Elmira Abdurahmanova, Rəna Azakqızı, Mirhəsən Ağayev, Emin Baratoğlu, Fəxrəddin Babayev, Zinyət Tahirzadə, bu yazının müəllifi və başqaları vətənpərvərlik mövzusunda və şəhidlər haqqında daha çox şer və müxtəlif janrlar yazan, kitablar nəşr etdirən müəlliflərdir.

Vətən, Torpaq uğrunda igidliklə döyüşən şəhid övladlarımızı nəsillər üçün yaşatmaq, tanıtmaq hər bir vətənpərvər insanın müqəddəs borcudur.

**Şəhla XƏLİLQIZI,**
**«Qəbələ»nin ştatdankənar müxbiri.**

# Həkim məntəqələri əsaslı təmir edilmişdir

Uzun müddət istifadəyə yararsız olan, əsaslı təmirdən sonra istifadəyə verilən Qəbələ rayonunun Hacıalılı və Zalam kənd həkim məntəqələrində Qəbələ Rayon Mərkəzi Xəstəxanasının və kənd həkim məntəqələrinin tibb heyəti tərəfindən kəndlərin sakinləri müayinə edilib. Pediatr, terapevt, nevroloq, eləcə də EKQ və ultrasəs müayinələrindən keçirilən sakinlər regionlarda əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin artırılması, vətəndaşların tibbi xidmətə əlçatanlığının təmin olunması, eləcə də tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülmüş işlərə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.



# Növbəti ağacəkmə aksiyası



Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə növbəti ağacəkmə aksiyası keçirilmişdir. Aksiya çərçivəsində Qəbələ şəhərinin Elçin Kərimov küçəsində yerləşən 0,20 hektar ərazidə ümumilikdə 295 ağac, o cümlədən 260 ədəd şam və 35 ədəd innab ağacları əkilmişdir.




QƏBƏLƏ

qəzetinə

**2025-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir.**

**Yarımillik abunə qiyməti 20 manatdır.**

***Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.***

***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***

**Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226** (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

**Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.**


# İTMİŞDİR

Qəbələ rayon Zarağan kənd sakini **İsmayılov Yasər Seyidməmməd oğluna** məxsus 99 XN 998 nömrəli MERSEDES E 220 markalı **minik avtomobilinin texniki qeydiyyat şəhadətnaməsi itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Aydınqışlaq kənd sakini **Alxasov Əjdər Əhməd oğluna** məxsus 36 BA 708 nömrəli VAZ 2106 markalı **minik avtomobilinin qeydiyyat nişanı itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Kürd kənd sakini **Qurbanov Rac Yasif oğluna** məxsus şəxsiyyət vəsiqəsi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **Qarabağ Müharibəsi Veteranı vəsiqəsi itdiyi üçün** etibarsız sayılır.


Redaktor
Azad Məmmədov.

*TƏSİSÇİ:*
Redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 900*